

Milli azadlıqdan şirin nemət yoxdur!

# Yeni Azərbaycanla 7-ci seçkiyə!

## 5 gün qalır...




YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
02 fevral 2024-cü il, cümə
№ 020 (6605)
Qiymәti 60 qəpik



# 7 FEVRAL

# ANA VƏTƏN!

## Tariximizin, Taleyimizin Laçın dövrü başlayıb...

28 may 2023-cü il
Laçın

# 2024-cü İL HAMI SEÇƏCƏK

# Yeni Azərbaycanla 7-ci seçkiyə! 5 gün qalır...

# Azərbaycan dialoqu dəstəkləyir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi, bunun Azərbaycan xalqı və dövləti üçün tarixi məqam olduğunu qeyd etdi, bu yeni şəraitin regionda sülhün və sabitliyin gücləndirilməsi üçün imkanlar yaratdığını vurğuladı.

Dövlətimizin başçısı dedi ki, Minsk qrupu 28 il ərzində münaqişənin həlli prosesi ilə məşğul olsa da heç bir nəticə əldə edilmədi, Azərbaycan torpaqları işğaldan azad olunmadı, məcburi köçkünlərin geri qayıtması təmin edilmədi. Azərbaycan tərəfi isə torpaqları işğal altında olan zaman haqlı şəkildə Minsk qrupunun üzv dövlətlərini Ermənistana təzyiq göstərmək, ona müvafiq sanksiyalar tətbiq etmək barədə təkliflər irəli sürdüyü halda, o vaxt Minsk qrupu tərəfindən bu istiqamətdə heç bir addım atılmadı.

Prezident İlham Əliyev diqqətə çatdırdı ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatandan sonra Azərbaycan regionda sülh gündəliyinin təşəbbüskarı olaraq Ermənistanla sülh müqaviləsinin imzalanması təklifi ilə çıxış edib. Amma Ermənistan tərəfindən buna adekvat reaksiya verilmədi. Ona görə də Azərbaycan sülh müqaviləsinin əsaslarını təşkil edən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq 5 prinsip irəli sürüb ki, bunun əsasında da sülh müqaviləsi üzrə danışıqlar prosesinin təşəbbüskarı Azərbaycan olub.

Dövlətimizin başçısı 2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatandan sonra üçtərəfli Bəyanat çərçivəsində Ermənistanın üzərinə götürdüyü bir sıra öhdəliklərini yerinə yetirmədiyini, son 3 il ərzində Azərbaycanın Qarabağ bölgəsində separatizmi maliyyə, hərbi və digər vasitələrlə dəstəkləməkdə davam etdiyini bildirdi.

Azərbaycan Prezidenti ötən il sentyabrın 2-də Ermənistan rəhbərliyinin qondarma "Dağlıq Qarabağ respublikası"nın "müstəqilliyi" münasibətilə göndərdiyi təbrikin, həmçinin sentyabrın 9-da keçirilmiş dırnaqarası "prezident seçkiləri"nin sülh prosesinə ciddi zərbə vurduğunu, Azərbaycanın özünün ərazi bütövlüyünü və suverenliyini təmin etmək üçün antiterror tədbirləri keçirməli olduğunu vurğuladı.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan ilə Ermənistan arasında artıq de-fakto sülh mövcuddur və iki ölkənin sərhədində bir neçə aydır sülh şəraiti hökm sürür. Amma bu prosesin məntiqi sonluğa çatdırılması üçün sülh müqaviləsi imzalanmalı və Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır.

Prezident İlham Əliyev bu xüsusda qeyd etdi ki, Ermənistanın müstəqillik haqqında Bəyannaməsində Azərbaycanın Qarabağ bölgəsinin Ermənistanla birləşdirilməsinə və Azərbaycanın ərazi bütövlüyünün pozulmasına birbaşa çağırışlar var və bu sənədə istinadlar da Ermənistanın Konstitusiyasında öz əksini tapıb. Həmçinin Ermənistanın digər normativ-hüquqi sənədlərində Azərbaycana qarşı ərazi iddiaları, Ermənistanın qoşulduğu bir çox konvensiyalarda və digər sənədlərdə Azərbaycanın Qarabağ üzərində suverenliyini tanımayan çoxsaylı qeyd-şərtlər mövcuddur. Bununla yanaşı, dövlətimizin başçısı vurğuladı ki, Ermənistanın beynəlxalq məhkəmələrdə Azərbaycana qarşı irəli sürdüyü iddiaların əsasını da Ermənistan tərəfindən Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tanınmaması, Qarabağın Azərbaycandan ayrılması kimi məsələlər təşkil edir. Azərbaycan Prezidenti qeyd etdi ki, bu iddialara son qoyulduğu, Ermənistan Konstitusiyasında və digər normativ hüquqi sənədlərdə dəyişikliklər edildiyi halda sülhə nail oluna bilər. Ermənistanda bunun tez bir vaxtda həyata keçirilməsinin vacibliyini bildirən dövlətimizin başçısı vurğuladı ki, hazırda Ermənistanda bu mövzuda ölkədaxili müzakirələrin başlanması müsbət addım kimi qiymətləndirilir və bu, sülh prosesinin tezliklə yekunlaşdırılması üçün yaxşı imkan yarada bilər.



## İlham Əliyev: Ermənistan Konstitusiyasında və digər normativ hüquqi sənədlərdə dəyişikliklər edildiyi halda sülhə nail oluna bilər

Qonaq Beynəlxalq Parlamentlər İttifaqının Ermənistanın və Azərbaycanın parlament nümayəndələri arasında dialoq üçün platforma ola biləcəyi təklifi ilə çıxış etdi. Dövlətimizin başçısı bu təşəbbüsü yüksək qiymətləndirərək, iki ölkənin parlamentləri arasında məhz bu platformada dialoqun aparılmasının Azərbaycan tərəfindən dəstəkləndiyini diqqətə çatdırdı.

Fransanın regionda dağıdıcı siyasət həyata keçirərək od üstünə benzin tökmək prinsipindən çıxış etdiyini, Ermənistanın militarizasiya siyasəti apardığını, geosiyasi intriqaların təşəbbüskarı olduğunu deyən Prezident İlham Əliyev rəsmi Parisin regionda vəziyyətin gərginləşməsinin səbəbkarı olduğunu, müxtəlif beynəlxalq təşkilatlarda və parlament müstəvilərində anti-Azərbaycan siyasət yürütdüyünü də diqqətə çatdırdı. Dövlətimizin başçısı Fransanın Cənubi Qafqaz regionunda aparıcı mövqeyə nail olmaq və nüfuzunu gücləndirmək məqsədilə siyasət yürütdüyünü, lakin onların bu istiqamətdəki cəhdlərinin əbəs olduğunu vurğuladı.

Prezident İlham Əliyev Avropa Şurası Parlament Assambleyasında anti-Azərbaycan xarakteri daşıyan və Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin ratifikasiya edilməməsi ilə bağlı azlıq olan bir qrupun təşəbbüsünün dialoqa xidmət etmədiyini vurğulayaraq bildirdi ki, bu, ümumiyyətlə, parlament platformasının ənənələri ilə ziddiyyət təşkil edir. Azərbaycan nümayəndə heyətinin hüquqlarının bərpa edilməli olduğunu deyən dövlətimizin başçısı diqqətə çatdırdı ki, Azərbaycan nümayəndə heyətinin hüquqları bərpa olunmayacağı təqdirdə, Azərbaycan tərəfindən də Avropa Şurası və Avropa İnsan Haqları Məhkəməsində iştirak məsələsinə yenidən baxılacaq.

Martin Çunqonq Parlamentlərarası İttifaqın parlamentarilər arasında dialoqa, inklüzivliyə çağırdığını, eksklüzivliyinin tərəfdarı olmadığı, bu kimi yanaşmaların düzgün qəbul edilmədiyini, beynəlxalq parlamentarizm ənənələri ilə uyğun gəlmədiyini diqqətə çatdırdı.

Qonaq COP29-la bağlı dövlətimizin başçısını təbrik edərək, COP29 keçiriləcəyi zaman Parlamentlərarası İttifaq çərçivəsində parlament nümayəndə heyətlərini bir araya gətirən, ətraf mühit və iqlim dəyişikliyi istiqamətlərində beynəlxalq səyləri dəstəkləyən bir tədbirin təşkil olunma təşəbbüsü ilə çıxış etdi. Bu təşəbbüsü dəstəkləyən dövlətimizin başçısı qonağı Azərbaycanın ev sahibliyi edəcəyi COP29-a dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

Parlamentlərarası İttifaqın Baş katibi Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə də təbriklərini çatdırdı, ölkəmizin Hərəkatın parlament ölçüsünün yaradılması təşəbbüsünü təqdir etdi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına 4 illik sədrliyi müddətində bu təsisatın beynəlxalq nüfuzunun artırılması, yeni əməkdaşlıq sahələrinin yaradılması, bu xüsusda parlament, gənclər ölçülərinin və qadın platformasının təsis olunması istiqamətində təşəbbüslərlə çıxış etdiyini vurğuladı.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# Gənclərə qayğı - gələcəyə qayğıdır

Sağlam əqidəli, vətənpərvər, milli köklərə bağlı olan, eyni zamanda yüksək təhsilli və intellektual səviyyəli gəncliyin formalaşdırılması uğurlu dövlət formulunu şərtləndirən ən mühüm məqamlardan biridir. Zaman ötür, nəsillər dəyişir. Bu günün gəncləri sabahın müəllimləri, həkimləri, hüquqşünasları, diplomatları və digər peşə sahibləridirlər. Buna görə də çox doğru olaraq gənclərə göstərilən diqqət ölkənin, xalqın gələcəyinə göstərilən qayğı anlamında qəbul olunur. Müstəqillik yolunda inamlı addımlar atan və son 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə özünün əsas ümummilli ideyalarının, prioritet hədəflərinin reallaşdırılmasına nail olan Azərbaycan uğurlu gənclər siyasəti həyata keçirir. Gənclərimiz də onlara göstərilən hərtərəfli dövlət qayğısından bəhrələnməklə yüksək fəallıq nümayiş etdirir və bütün istiqamətlərdə ölkəmizin inkişafına özlərinin sanballı töhfələrini verirlər.

## MDB və Şərqi Avropa məkanında bir ilk

Bu gün Azərbaycanda gənclər üçün özəl bir bayramdır - respublikamızda Gənclər Günü qeyd olunur. Bunun əsası isə Ulu Öndər Heydər Əliyevin 2 fevral 1997-ci il tarixində imzaladığı sərəncamla qoyulub. Həmin vaxtdan etibarən 2 fevralın MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda Gənclər Günü kimi təntənəli şəkildə qeyd edilməsinə başlanıb.

Gənclər Gününü təsis etməsi Ulu Öndərimizin gənclərə olan xüsusi münasibətinin ifadəsidir. 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə respublikamızın siyasi rəhbərliyinə qayıdan Heydər Əliyev ilk görüşlərindən birini məhz gənclərlə keçirdi. Bu görüş açıq dialoq şəraitində keçdi, gənclər problemlərini dilə gətirdilər, arzu və istəklərini bildirdilər. Sonrakı illərdə Heydər Əliyevin imzaladığı bir çox sənədlər respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şərait yaratdı, gənclər siyasətinin məqsəd, prinsip və istiqamətlərini, habelə təşkilati-hüquqi əsaslarını müəyyən etdi. Prezident Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli fərmanı ilə Azərbaycanda Gənclər və İdman Nazirliyi yaradıldı. Heydər Əliyevin gənc nəslə qayğının təzahürü kimi ötən əsrin 70-80-ci illərində Onun tərəfindən əsası qoyulmuş azərbaycanlı gənclərin xarici ölkələrin qabaqcıl ali məktəblərində təhsil almağa göndərilməsi ənənəsi bərpa edildi. Artıq 2003-cü ildə dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində 160-a qədər ixtisas üzrə 3000-dən çox azərbaycanlı gənc təhsil alırdı. Heydər Əliyev dövlət hesabına xaricdə təhsil alan gənclərin sosial durumunu daim diqqət mərkəzində saxlayırdı. Onun göstərişi ilə təkcə Türkiyədə dövlət hesabına təhsil alan 700 azərbaycanlı tələbənin hər birinə təqaüd verilməsi üçün ildə 2,4 milyard manat vəsait ayrılmışdı. İstedadlı gənclərin təhsilə marağını daha da artırmaq və dəstəkləmək üçün Prezident Heydər Əliyevin ali məktəblərə qəbul imtahanlarında ən yüksək bal toplamış abituriyentlərlə şəxsən görüşməsi, onlara "Prezident təqaüdü"nün verilməsi barədə qərar qəbul etməsi dahi şəxsiyyətin gənclərə diqqətinin daha bir nümunəsidir. Heydər Əliyev tərəfindən 1996-cı il 22 iyun tarixində imzalanmış "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" fərmana əsasən istedadlı gənclərə dövlət qayğısını təmin etmək məqsədilə gənc istedadların "Qızıl kitab"ı yaradıldı. Eyni zamanda, "Qızıl kitab"a adları yazılmış gənc istedadlara təqdim etmək üçün xüsusi təqaüd təsis edildi.

Respublikamızda gənclər forumlarının keçirilməsi ideyası da Heydər Əliyevdən gəlib. Onun 1995-ci ildə irəli sürdüyü təşəbbüsdən sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumlarının təşkil edilməsinə start verildi.1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoydu "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir".

Prezident Heydər Əliyev gənc nəslə həssas yanaşmasının təzahürü olaraq 1999-cu il iyulun 29-da "Dövlət gənclər siyasəti haqqında" ayrıca fərman imzaladı. Bu sənədlə ölkədə gənclərin inkişafı üçün daha əlverişli şəraitin yaradılması təmin edildi. 2002-ci il 9 aprel tarixində "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Respublikamızda gənclər siyasətinin məqsədləri, prinsipləri, istiqamətləri, təşkilati-hüquqi əsasları məhz bu Qanunla tənzimlənir.



## Gənclərə qayğı davamlı prosesə çevrilib

Azərbaycanın siyasətində varisliyin təmin olunması ölkəmizin böyük üstünlüyüdür. Son 20 ildə Prezident İlham Əliyev digər istiqamətlərdə olduğu kimi, gənclər siyasətinin də ardıcıllığını yüksək səviyyədə təmin edib. Bəhs olunan dövrdə Azərbaycan gəncliyinin fiziki və mənəvi inkişafı, gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində dövlət tərəfindən ardıcıl və sistemli tədbirlər həyata keçirilib. Bu sahədə normativ hüquqi baza müasir dövrün tələblərinə uyğun və dünyada mövcud müsbət təcrübəyə əsaslanaraq təkmilləşdirilib, gənclərə xidmət göstərən, müasir standartlara cavab verən infrastrukturun yaradılması və inkişaf etdirilməsi təmin olunub.

Ötən 20 ildə paytaxtda və regionlarda 32 "Gənclər evi" sosial xidmət müəssisəsi tikilib, ölkənin bütün inzibati ərazi vahidlərində Gənclərin İnkişaf və Karyera Mərkəzi nümayəndəliklərinin fəaliyyəti təşkil olunub, onlarla Olimpiya İdman Kompleksi və digər idman qurğusu gənclərin və idman həvəskarlarının istifadəsinə verilib. İdmana, idmançılara göstərilən diqqət və qayğı sayəsində təkcə Olimpiya medalçılarının sayı 47 nəfərə çatıb. Gənclərin məşğulluğu, biznes fəaliyyətinin təşkili və karyera quruculuğuna xüsusi diqqət yetirilib. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2007-ci il respublikamızda "Gənclər ili" elan edilib. Dövlətimizin başçısı 30 dekabr 2019-cu il tarixində "Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər İli" elan edilməsi haqqında" sərəncam imzalayıb ki, bu da ölkəmizdə, eyni zamanda, gənclərə göstərilən diqqət və qayğının daha bir bariz nümunəsidir.

Dövlət başçısının təşəbbüsü ilə 2011-ci il 19 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu yaradılıb. Fondun qarşısında gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş ictimai və sosial əhəmiyyətli, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramları qrant şəklində maliyyələşdirmək məqsədi qoyulub. 2018-ci ildə fond yenidən təşkil edilərək Azərbaycan Respublikasının Gənclər Fondu adlandırılıb. Prezident İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm qərarlardan biri də 2013-cü il 2 iyul tarixində ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi oldu. Prezident Mükafatı elm, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət, təhsil, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq fəaliyyəti sahələrində xüsusi fərqlənən 10 nəfər gəncə ildə bir dəfə 10000 (on min) manat məbləğində verilir.

Ölkəmizdə bacarıqlı gənc kadrların irəli çəkilməsi də diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli sərəncamı ilə "Yüksəliş" müsabiqəsi təsis edilib. Bu müsabiqənin əsas məqsədi intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılmasıdır.

Gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində əldə edilmiş nailiyyətlər Vətən müharibəsində şanlı Zəfərimizi şərtləndirən əsas amillərdən biri olub. Verilən məlumatlara görə 44 günlük müharibədə Ermənistanın silahlı qüvvələrində təxminən 11 min fərari qeydə alınıb - onlar silah və sursatlarını qoyaraq döyüş mövqelərindən qaçıblar. Azərbaycan Ordusunda isə bir nəfər də olsun fərarilik etməyib. Gənc əsgər və zabitlərimiz "Arxada Vətəndir" deyib daim irəli getməyə, torpaqlarımızı son qarışınadək işğaldan azad etməyə can atırdılar. Həmin hərbiçilər Heydər Əliyev və İlham Əliyev dövründə formalaşan sağlam əqidəli, vətənpərvər gəncliyi təmsil edirdilər.

## Gənclər üçün yüksək səviyyəli təhsil mühiti

Yüksək səviyyəli təhsil mühitinin yaradılması Azərbaycanın gənclər siyasətinin çox mühüm istiqamətlərindən birini təşkil edir. Məlumdur ki, ötən 20 il ərzində Azərbaycanda Prezident İlham Əliyevin siyasi iradəsi əsasında qara qızılı insan kapitalına çevirmək prinsipi əsasında islahatlar aparılıb. O cümlədən ötən dövrdə gənclər siyasəti ilə bağlı müxtəlif illəri əhatə edən bir neçə Dövlət Proqramı uğurla icra edilib. Həmin Dövlət proqramları ilə qarşıya qoyulan əsas hədəflərdən biri də gənclərin təhsilə əlçatanlığının artırılması ilə bağlıdır. Son 20 ildə respublikamızda gənclər siyasəti ilə bağlı təsdiqlənən mühüm Dövlət proqramları aşağıdakılardır:

- "Azərbaycan gəncliyi Dövlət Proqramı" (2005-2009-cu illər);
- "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)";
- "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı;
- "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı;
- "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası";
-"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı";
- "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı".

Sonuncu Dövlət Proqramının icrası müddətində hər il 400 nəfərdən çox olmamaqla, ümumilikdə 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura səviyyələrində oxumalar ı təmin ediləcək.

## Növbəti yeddi il üçün hədəflər

Respublikamızda Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və son 20 ildə Prezident İlham Əliyevin siyasi iradəsi əsasında inkişaf etdirilən uğurlu gənclər siyasəti növbəti yeddi ildə də eyni ardıcıllıqla davam etdiriləcək. Yeni Azərbaycan Partiyasının ölkə prezidentliyinə namizədi, partiyanın Sədri İlham Əliyevin seçki platformasında bununla bağlı aşağıdakı konkret müddəalar yer alıb:

* Gənclər və idman sahəsində infrastrukturun daha da təkmilləşdirilməsi;
* Gənclərin elmə və təhsilə həvəsləndirilməsi;
* Gənclərin idmana və sağlam həyat tərzinə bağlılığının artırılması;
* Gənclərin sahibkarlıq bacarıqlarının daha da inkişaf etdirilməsi;
* Gənclərin ölkənin ictimai-siyasi həyatında rolunun artırılması;
* Könüllülük hərəkatının bütün ölkəni, o cümlədən işğaldan azad olunmuş əraziləri və orada yaşayan gəncləri əhatə etməsi.

*Mübariz ABDULLAYEV*

## Yeni Azərbaycanla 7-ci seçkiyə!
## 5 gün qalır...

# YAP Mərkəzi Aparatında "Mənim Səsim" Seçki Monitorinq Koalisiyasının nümayəndələri ilə görüş keçirilib



Fevralın 1-də Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov 2024-cü il fevralın 7-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar yaradılmış "Mənim Səsim" Seçki Monitorinq Koalisiyasının nümayəndələrini qəbul edib.

Koalisiyanın həmtəsisçiləri - "D.Əliyeva adına Qadın Hüquqlarının Müdafiəsi Cəmiyyəti" İctimai Birliyinin sədri Novella Cəfəroğlu, İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi İctimai Birliyinin sədri Səidə Qocamanlı, Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli Bölməsinin sədri Səadət Bənənyarlı, həmçinin ekspertlər - sosioloq Əhməd Qəşəmoğlu və politoloq Adəm İsmayıl Bakuvi fevralın 7-də keçiriləcək prezident seçkilərinə ölkəmizdə və beynəlxalq müstəvidə böyük maraq olduğunu diqqətə çatdırıblar. Vurğulanıb ki, koalisiya prezident seçkiləri kampaniyasının gedişini paytaxtla yanaşı, bölgələrdə də yaxından izləyir. Sonra koalisiya tərəfindən indiyədək görülmüş işlər və yekun hesabat tərtib olunana qədər nəzərdə tutulan tədbirlər barədə məlumat verilib.



YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov 2024-cü il fevralın 7-də keçiriləcək prezident seçkilərinin Azərbaycan xalqı və dövləti üçün çox mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb. Seçki kampaniyasının uğurla davam etdiyini söyləyən Tahir Budaqov vurğulayıb ki, ölkəmizdə seçkilərin azad, şəffaf və demokratik qaydada keçirilməsi üçün bütün şərait mövcuddur.

Daha sonra koalisiya nümayəndələrininin sualları cavablandırılıb.

# YAP Sədrinin müavini Tahir Budaqov "Sivil Toplum" Monitorinq Koalisiyasının həmsədrlərini qəbul edib



Fevralın 1-də Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov 2024-cü il fevralın 7-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərində müşahidəçilik fəaliyyətini həyata keçirən "Sivil Toplum" Monitorinq Koalisiyasının həmsədrlərini qəbul edib.

Görüş zamanı həmsədrlər - "Müstəqil Hüquq Mərkəzi" İctimai Birliyinin sədri Aydın Kərimov, "Demokratik Seçki Mərkəzi" İctimai Birliyinin sədri Qorxmaz İbrahimli və "Cəmiyyətin İnkişafı Mərkəzi" İctimai Birliyinin sədri Əhməd Abbasbəyli koalisiyanın seçki kampaniyası müddətində həyata keçirilmiş və səsvermə günü də daxil olmaqla qarşıdakı dövr üçün planlaşdırılan fəaliyyəti barədə məlumat veriblər.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov fevralın 7-də keçiriləcək prezident seçkilərinin önəmini diqqətə çatdırıb. Seçki kampaniyasının yüksək səviyyədə həyata keçirildiyini vurğulayan Tahir Budaqov vətəndaş cəmiyyətinin bu prosesdə fəal iştirakının Azərbaycanda demokratik mühitin bariz nümunəsi olduğunu söyləyib.

Sonra seçki kampaniyası ilə bağlı koalisiya nümayəndələrinin sualları cavablandırılıb.



# Azərbaycan gəncliyinin seçimi qalib Lider İlham Əliyevdir!
## 7 fevral mənim üçün ikiqat bayram olacaq

Bu gün Azərbaycan bütün sahələr üzrə dinamik inkişaf edir. Təbii ki, ölkəmizin sürətli inkişafı, ictimai həyatın bütün sahələrində əldə edilən nailiyyətlər dövlət gənclər siyasətində də özünü bariz şəkildə göstərir. Yəni uğurlu daxili siyasətin ən mühüm istiqamətlərindən biri cəmiyyətin fəal təbəqəsi olan gənclərin yüksək dövlət qayğısı ilə əhatə olunmasıdır. Azərbaycanda həyata keçirilən gənclər siyasəti fərqlənir və dünyada nümunə kimi çıxış edir. Bu siyasətin əsas məqsədi gənclərin hərtərəfli inkişafını təmin etmək, onları yüksək vətənpərvərlik ruhunda formalaşdırmaq, layiqli vətəndaş kimi yetişdirməkdən ibarətdir.

Gənclik enerji, təşəbbüskarlıq, yaradıcılıq və yenilikçilik deməkdir. Tarixi ənənələri mənimsəmiş, milli ideologiya ətrafında sıx birləşmiş, vətənpərvərlik ideyası əsasında tərbiyə olunaraq yetişmiş gənclik cəmiyyətin inkişaf mənbəyidir. Çünki cəmiyyətin dinamik və aparıcı qüvvəsi olan gənclərin fiziki və mənəvi potensialından səmərəli, məqsədyönlü şəkildə istifadə edilməsi həm milli tərəqqiyə mühüm töhfə verir, həm də parlaq perspektivlər formalaşdırır.



**Murad PAŞAYEV**
**"Yeni Azərbaycan" qəzetinin əməkdaşı**

Azərbaycan gəncliyinin inkişafında Ümummilli Lider Heydər Əliyev əvəzolunmaz xidmətlər göstərib. Bu siyasət Azərbaycan gəncliyinin fiziki, mənəvi və intellektual inkişafını təmin edib. "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi, Gənclər və İdman Nazirliyinin yaradılması, ölkəmizdə Gənclər Gününün təsis edilməsi və digər mühüm əhəmiyyətə malik olan tədbirlər də bu kontekstdə xüsusi vurğulanmalıdır. Ulu Öndər Heydər Əliyevin 1997-ci il fevralın 2-də imzaladığı fərmana əsasən fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təsis olunub. Hər il Azərbaycan gəncliyi bu təqvimi yüksək əhval-ruhiyyədə qeyd edir.

Bu gün Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət gənclər siyasətini uğurla davam etdirir. Dövlət başçısının müxtəlif illərdə gəncliyin inkişafı ilə bağlı imzaladığı fərman və sərəncamlar ölkəmizdə həyata keçirilən gənclər siyasətinə yeni impuls verib. Ən mühüm məqam isə Azərbaycan gənclərinin yüksək milli vətənpərvərlik ruhunda yetişməsidir. 44 günlük Vətən müharibəsində və Qarabağda keçirilən antiterror tədbirlərində biz bu reallığın şahidi olduq. Rəşadətli Azərbaycan Ordusunun sıralarındakı Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz öz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Bu fakt da Ulu Öndər Heydər Əliyevin gənc nəsli Azərbaycanın uğurlu sabahı naminə səfərbər edən siyasətinin, Prezident İlham Əliyevin gənc nəslə verdiyi önəmin nəticəsidir.

Azərbaycan gənclərinin siyasi mövqeyinə gəlincə, burada da onlar Ulu Öndər Heydər Əliyevin ideyalarına və Prezident İlham Əliyevin siyasətinə sadiqdirlər. Bu, indiyədək keçirilmiş seçkilərdə biz gənclərin Heydər Əliyev siyasi kursunu dəstəkləməsində də özünü ifadə edir.

Bizi - müasir Azərbaycan gəncliyini yeni bir sınaq gözləyir. Məlumdur ki, bir neçə gündən sonra - 7 fevral tarixində Azərbaycanda Prezident seçkiləri keçiriləcək. Gənclərimiz Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş qalib xalqın qalib Lideri İlham Əliyevin seçkiqabağı təşviqat kampaniyasında fəal iştirak edirlər. 7 fevral - səsvermə günündə də gənclərimiz daha fəal olmalı, bu Zəfər seçkisində öz vətəndaşlıq mövqeyini ortaya qoymalıdırlar.

Şübhə yoxdur ki, bütün vətəndaşlarımız, o cümlədən gənclərimiz prezident seçkilərində yüksək əhval-ruhiyyə ilə iştirak edəcəklər.

7 fevral Prezident seçkiləri bir gənc olaraq mənim üçün ikiqat əlamətdardır. Çünki prezident seçkilərinin keçirildiyi tarix - 7 fevral mənim doğum günümdür. Bu mənada prezident seçkilərində qalib Lider, Müzəffər Ali Baş Komandan, gənclərin dostu İlham Əliyevin parlaq qələbəsi mənim üçün həyatımda unudulmaz ad günü hədiyyəsi olacaq!

Bütövlükdə isə, nəzərə almalıyıq ki, Zəfər seçkisi yeni dövrün başlanğıcıdır və yeni dövrdə cənab İlham
Əliyevin liderliyi ilə yeni hədəflərimizə çatmaq başlıca məqsədlərimizdir. Bu yolda Azərbaycan gəncliyinə uğurlar arzulayıram!

# Xalqın qəlbində ucaldılan məhəbbət abidəsi

Azərbaycan öz tarixinin ən şanslı, ən şərəfli illərini yaşayır. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Müzəffər Ordumuz 44 günlük Vətən Müharibəsində erməni faşizmini məhv edərək xalqımızı və bəşəriyyəti bu faşizmdən xilas etdi. 23 saatlıq antiterror əməliyyatları ilə ölkəmizdə separatizmin kökü kəsildi. Ölkəmizin ərazi bütövlüyünü təmin edərək, suverenliyimizə nail olduq.

Bütün bu əldə olunan möhtəşəm qələbələr cənab İlham Əliyevin sarsılmaz qətiyyəti, cəsarəti, atdığı siyasi-diplomatik addımların, yeritdiyi böyük siyasətin, informasiya müharibəsində qazandığı tarixi nailiyyətlərin nəticəsində əldə olunmuşdur.

Ölkəmizə rəhbərlik etdiyi 20 il ərzində Azərbaycan iqtisadiyyatı tarixdə görünməmiş müvəffəqiyyətlər qazanmışdır. Bu illər ərzində ümumi daxili məhsulumuz 3,7 dəfə artmış, sosial-iqtisadi inkişafa dair 4 Dövlət Proqramı böyük təntənəylə başa çatdırılmışdır. Post-neft erasına daxil olan Azərbaycan Respublikası neftdən asılılığın aradan qaldırılmasına yönəlmiş iqtisadi siyasəti həyata keçirərək qeyri-neft sektorunun yüksək sürətli inkişafına nail olmuşdur.

"Əsrin müqaviləsi"nin ən böyük layihələrindən biri olan "Bakı-Tbilisi-Ceyhan" neft ixrac boru kəməri 2006-cı ildə işə düşdü. Azərbaycan nefti ilk dəfə olaraq Aralıq dənizi vasitəsi ilə dünya bazarlarına çıxarıldı. Həmin il, 2006-cı ildə ölkəmiz ÜDM-in artım sürətinə görə 35,5 faizlə dünya birinciliyi qazandı.

Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsi ilə Asiya və Avropa birləşdirilərək Şərq-Qərb dəhlizi yaradıldı. Şimal-Cənub dəhlizi yaradıldıqdan sonra Azərbaycan dünyanın ən böyük tranzit mərkəzlərindən birinə çevrildi.

2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri işə salındı. Cənubi Qafqaz adıyla tanınan bu qaz kəməri Türkiyə və Gürcüstan kimi qardaş ölkələrin enerji təhlükəsizliyini təmin etməklə yanaşı, sonradan genişləndirilərək, 2012-ci ildə əsası qoyulan Cənub Qaz Dəhlizinin yaradılmasında böyük rol oynamışdır. 4 layihədən ibarət olan Cənub Qaz dəhlizi dünyanın ən böyük qaz kəmərlərindən biri olmaqla, bütün Türkiyə ərazisindən keçərək, Yunanıstan sərhədlərinə qədər uzanan Trans Anadolu qaz kəmərinin, daha sonra Yunanıstan, Albaniya və İtaliya hökümətləri ilə bağlanan müqavilələrə əsasən bu ölklərin ərazisində və Adriatik dənizindən keçərək İtaliyanın cənubunadək uzanan Trans Adriatik qaz kəmərinin 2020-ci ilin dekabrın 31-də işə düşməsi ilə başa çatdırılmışdır. Cənub Qaz Dəhlizinin yaradılmasına nail olan Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynamaqla yanaşı, Avropa İttifaqının 9 ölkəsi ilə strateji əməkdaşlıq qura bilmişdir.

1991-2010-cu illərdə inzibati-amirlik sistemindən bazar iqtisadiyyatına keçid dövrünü yaşayan Azərbaycan Respublikası iqtisadi əsası müxtəlif olan sistemlərin transformasiyanı həyata keçirdiyindən köklü islahatların aparılması zərurəti yaranmışdır. Ulu Öndər Heydər Əliyevin başladığı bu islahatları ölkə Prezidenti cənab İlham Əliyev başa çatdırdı.

Müstəqilliyin bərpasının ilk illərində Azərbaycan siyasi suverenliyini itirmək təhlükəsi qarşısında qalmışdı. Artıq Gəncədə vətəndaş müharibəsi başlanmışdı.

Zəngin dövlətçilik təcrübəsi olan Heydər Əliyevin sarsılmaz qətiyyəti, cəsarəti, atdığı siyasi-diplomatik addımların nəticəsində ölkəmizin suverenliyi qorunub saxlanıldı.

Siyasi suverenliyin dönməz və əbədi olması iqtisadi müstəqilliyin olmasını tələb edirdi. "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmaqla Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına elə bir "Sönməz Məşəl" vermiş oldu ki, onun nuruyla biz uzun illər müstəqillik yollarıyla inamla addımladıq və bu "Sönməz Məşəl" xoşbəxt gələcəyimizin əsası oldu.

Ulu Öndər Heydər Əliyev deyirdi ki, mən İlham Əliyevə özüm qədər inanıram. İnanıram ki, mənim yarımçıq qalan, başa çatdırmadığım işləri İlham Əliyev başa çatdıra bilər.

Azərbaycan xalqı böyük inamla deyə bilər ki, Vətənin dahi oğlu İlham Əliyevin bu möhtəşəm qələbələrinin əsasında Vətən və xalq məhəbbəti dayanır. İlham Əliyev öz əməlləriylə xalqın qəlbini fəth edərək orada özünə möhtəşəm bir məhəbbət abidəsi ucaltmışdır. Elə bir abidə ki, günlər keçdikcə, illər ötdükcə bu abidə daha möhtəşəm, daha qüdrətli, daha əzəmətli görünür.

**i.ü.f.d., dos. Elçin Təhməz oğlu Eyvazov-"İqtisadiyyat və idarəetmə" fakültəsinin dekanı**

**i.ü.f.d., dos. Suğra İnqilab qızı Hümbətova,- "İqtisadiyyat" kafedrasının müdiri**

**i.e.d., dos. Rasim Əmir oğlu Nəbiyev,- "İqtisadiyyat" kafedrasının əməkdaşı**

## Yeni Azərbaycanla 7-ci seçkiyə!
## 5 gün qalır...




# Yeni zirvələri məhz İlham Əliyevin Liderliyi ilə fəth edə bilərik

**- Pərvin xanım, fevralın 7-də keçiriləcək prezident seçkilərinin mühüm mərhələsində - seçkiqabağı təşviqat kampaniyası dövründəyik. Əvvəlcə Azərbaycanda seçki mühitini dəyərləndirməyinizi xahiş edirik...**

- Ümumiyyətlə, seçkilər demokratik dövlətlərin, xalqların inkişaf tarixində çox mühüm rola malikdir. Seçkilər həm əvvəlki dövrün hesabatının aparılması, əldə olunan nəticələrin təhlil edilməsi baxımından əhəmiyyətlidir, həm də dövlətin qarşıdakı dövrdə inkişaf paradiqmalarının müəyyənləşdirilməsində böyük önəm kəsb edir. Bu baxımdan, Azərbaycanda fevralın 7-də keçiriləcək prezident seçkilərinin ölkəmizin demokratik inkişafı yolunda növbəti parlaq səhifə olacağını deməyə ciddi əsaslarımız var.

Ölkəmizdə seçkiöncəsi vəziyyət də kifayət qədər normaldır. Azərbaycan dövləti bu seçkilərin beynəlxalq standartlara uyğun demokratik şəraitdə keçirilməsi üçün lazımi şəraiti yaradıb. Seçkilərə ictimai maraq yüksək səviyyədədir. Hər bir namizəd üçün azad rəqabət şəraiti təmin olunub. Seçki prosesləri qanunvericiliyə tam uyğun həyata keçirilir. Ümumiyyətlə, Azərbaycan seçkilərin demokratik təşkili sahəsində zəngin təcrübəyə, mütərəqqi və beynəlxalq standartlara cavab verən təkmil qanunvericilik bazasına malikdir.

Seçkilərlə bağlı başqa bir diqqət çəkən məqam ondan ibarətdir ki, prosesə ciddi beynəlxalq maraq müşahidə olunur. Bu da bir neçə amillə əlaqədardır. Əvvəla, bu seçkilər regionda kifayət qədər strateji mövqeyə sahib olan, həmçinin beynəlxalq münasibətlər sisteminin güclü aktoru kimi çıxış edən Azərbaycanın gələcək dövrdəki inkişafının əsas istiqamətlərini müəyyənləşdirəcək. Eyni zamanda, bu seçkilərin nəticələri regionun inkişafı baxımından da əhəmiyyətlidir.

**- Yeni Azərbaycan Partiyası prezident seçkilərində partiyanın Sədri, dövlət başçısı İlham Əliyevin namizədliyini irəli sürüb. YAP seçkilərə “Qalib xalqın qalib Lideri!” şüarı ilə gedir. Təbliğat və təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşlər keçirirsiniz. Sizcə, seçkilərlə bağlı ümumi ictimai rəy nədən ibarətdir?**

- Əminliklə deyə bilərik ki, partiyamızın prezident seçkilərində cənab İlham Əliyevin namizədliyini irəli sürməsi xalqımızın istək və arzularından irəli gəlir. Biz təbliğat və təşviqat kampaniyası dövründə insanlarla görüşür, onların rəylərini, fikirlərini öyrənirik. Bundan əvvəl də ictimaiyyətlə görüşlərdə müşahidə etdiklərimiz, cəmiyyətin əhval-ruhiyyəsi açıq şəkildə göstərir ki, ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının bu qərarı Azərbaycan seçicilərinin mütləq əksəriyyətinin mövqeyini və iradəsini ifadə edir. Vətəndaşlarımızın Prezident İlham Əliyevlə bağlı söylədikləri xoş sözlər bir daha partiyamızın qərarının nə qədər yerində və obyektiv olduğunu sübuta yetirir.

Azərbaycanın inkişafının təməlində Heydər Əliyev siyasəti dayanır. Məhz Ulu Öndər Heydər Əliyev Azərbaycanı məhv olmaq təhlükəsindən xilas edərək müstəqilliyimizin dönməzliyini təmin etdi və ölkəmizi inkişaf yoluna çıxardı. Bütövlükdə, Ulu Öndərin dövlətimiz və xalqımız qarşısında xidmətləri misilsizdir. Azərbaycan xalqı bu xidmətlərinə görə Heydər Əliyevə əbədi olaraq minnətdardır və Onun müəyyənləşdirdiyi yola sadiqdir. 2003-cü ildə keçirilən prezident seçkilərində xalqımızın Heydər Əliyev siyasətinin layiqli davamçısı cənab İlham Əliyevə etimad göstərməsi məhz bu reallığın bariz göstəricisidir.

Bu gün hər bir vətəndaş dərk edir ki, Azərbaycanın əzəmətli inkişafı birbaşa Prezident, YAP-ın Sədri İlham Əliyevin adı və həyata keçirdiyi düzgün siyasətlə bağlıdır. Çünki dövlət başçısı İlham Əliyev ötən müddət ərzində öz fəaliyyəti ilə hər bir azərbaycanlının Prezidenti olduğunu təsdiq edib. Son 20 il ərzində Azərbaycan böyük və şərəfli inkişaf yolu keçib, möhtəşəm tarixi nailiyyətlər qazanıb. Dövlətimizin qüdrəti artıb, ölkənin siması bütünlüklə dəyişib, insanların rifahı yaxşılaşıb. Prezident
İlham Əliyevin xalqa verdiyi bütün vədlər real həyatda öz əksini tapıb. Bu müddətdə Azərbaycan dünyada ən sürətli iqtisadi inkişaf tempinə malik olan, vətəndaşların sosial problemlərini həll edən, insanların həyat standartlarının sürətlə yüksəldiyi bir dövlət kimi böyük nüfuz qazanıb. 2003-cü ildən inkişafın yeni mərhələsinə qədəm qoyan Azərbaycanın ötən 20 illik şanlı və zəngin tarixi bizim üçün qürur mənbəyidir.

Ali Baş Komandanın uzaqgörən, prinsipial və milli maraqlara əsaslanan siyasəti nəticəsində dövlətimiz və xalqımız qarşıya qoyduğu ən müqəddəs vəzifənin yerinə yetirilməsinə, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsinə nail olub. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, qəhrəman ordumuzun gücü və xalqın birliyi ilə Zəfərlə sona çatdı. O zaman İkinci Qarabağ müharibəsi nəticəsində biz işğala son qoyduq. 2023-cü il aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması tarixi zərurətdən irəli gəlib. Həmçinin ötən il sentyabrın 20-də şanlı ordumuz Qarabağda lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyini tam təmin etdi. Beləliklə, Azərbaycan Prezident İlham Əliyevin Liderliyi ilə ərazi bütövlüyünə və suverenliyinə qovuşdu, xalqımızı dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi tanındı. Eyni zamanda, şəhidlərimizin qanı yerdə qalmadı, onların qisası alındı.


Müsahibimiz YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadədir

Hazırda işğaldan azad olunmuş ərazilərimizin bərpası istiqamətində möhtəşəm işlər həyata keçirilir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük dövlət xadimi və Azərbaycan xalqının Lideri kimi hazırda əsas missiyası düşmənin viran qoyduğu işğaldan azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımızın doğma yurda qaytarılmasıdır. Tarixi Zəfərlər nəticəsində yaradılmış yeni reallıqlar Qarabağın və Şərqi Zəngəzurun bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının tezliklə reallaşacağını deməyə əsas verir. Bütün bunlara görə insanlar prezident seçkilərində cənab
İlham Əliyevin namizədliyini məhz bu reallıqları dərk edərək, həmçinin digər tarixi nailiyyətlər fonunda dəyərləndirirlər.

**- Sadaladığınız faktlar, həqiqətən, Azərbaycanın son 20 il ərzində yüksək inkişaf göstəricilərini ifadə edir. Son olaraq seçicilərə nə demək istərdiniz?**

- Əlbəttə, inkişaf davamlı bir prosesdir və zaman dəyişdikcə, qarşıya yeni vəzifələr, yeni hədəflər çıxır. Azərbaycanın da gələcək perspektivdə yeni və daha möhtəşəm hədəfləri, çox böyük planları var. Bu hədəflər dövlətimizi daha güclü etməklə inkişafın yeni mərhələsinə çatdırmaq, insanların rifahını daha da yüksəltmək və beləliklə, Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri sırasında yer almasını təmin etməkdən ibarətdir. Bu əzəmətli zirvələri isə xalqın etimadını doğrultmuş, milli maraqları və dövlət mənafeyini cəsarətlə qoruyan bir Liderlə fəth etmək olar. O Lider isə, şübhəsiz ki, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi cənab İlham Əliyevdir.

Dövlət başçısının dediyi kimi, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası müasir tariximizdə yeni dövrün başlanğıcıdır. Yeni dövrdə yeni hədəflərimiz var. Bu hədəflərə məhz qalib xalqın qalib Lideri İlham Əliyevin rəhbərliyi ilə çatmaq mümkündür. Ona görə də mən bütün seçiciləri konstitusion hüquqlarından istifadə edərək Azərbaycan dövlətinin gələcək inkişafı naminə çox mühüm əhəmiyyət kəsb edən bu seçkilərdə fəal iştirak etməyə, fevralın 7-də seçki məntəqələrinə gedərək xalqımıza böyük Qələbələr və uğurlar qazandıran cənab İlham Əliyevə səs verməyə çağırıram. Biz inanırıq ki, Azərbaycan xalqı növbəti dəfə cənab İlham Əliyevi dəstəkləyərək ölkəmizin daha da güclənməsinə səs verəcək. Bununla həm də xalqımızın, dövlətimizin daha parlaq gələcəyinə səs vermiş olacağıq. Cənab İlham Əliyevi dəstəkləmək möhtəşəm nailiyyətlərin davamlı olmasına, iqtisadiyyatımızın daha da inkişafına, növbəti Qələbələrimizə səs vermək deməkdir.

# Yeni Azərbaycanla 7-ci seçkiyə! 5 gün qalır...

## Azərbaycan gəncləri İlham Əliyevin ətrafında sıx birləşərək yeni zəfərlərə səs verəcəklər!



Müsahibimiz Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Bəxtiyar İslamovdur

**- Bəxtiyar müəllim, Azərbaycan çox mühüm siyasi proses ərəfəsindədir. Fevralın 7-də Azərbaycanın tarixində ilk dəfə olaraq bütün ölkə ərazisində seçkilərin keçirilməsinə şahidlik edəcəyik. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfərlə bitən Vətən müharibəsi və antiterror tədbirlərindən sonra yaranan yeni reallıqlar və çağırışlar fonunda prezident seçkilərinin əhəmiyyətini necə dəyərləndirmək olar?**

- 2024-cü il fevralın 7-di ölkə tarixinə yazılacaq misilsiz hadisəyə - müstəqil Azərbaycanın bütün ərazilərində keçiriləcək ilk seçkilərə şahidlik edəcəyik. Bu, tarixi hadisə olmaqla yanaşı, ölkəmiz və xalqımız üçün yeni dövrün başlanğıcıdır. Ötən 20 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş, müdrik və uzaqgörən siyasət bu gün Azərbaycanı yeni bir tarixi mərhələyə çıxarıb. Bu mərhələnin başlanğıcında ən vacib məqam isə yeni reallıqların müəllifinin Prezident İlham Əliyev olmasıdır.

Yaxın tarixə nəzər saldıqda 1990-cı illərdə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışının ölkəmiz üçün qurtuluş tarixi olduğunu görürük. 2024-cü il fevralın 7-nə təyin edilmiş prezident seçkilərinin isə Zəfərlər tarixində yeni mərhələnin başlanğıcı olduğuna şahid olacayıq. Heç şübhəsiz, Prezident İlham Əliyev hakimiyyətdə olduğu dövrdə Azərbaycanı güclü ölkəyə çevirməklə yanaşı, bu gün bütün dünyanın birmənalı olaraq qəbul etdiyi qalib dövlət obrazını da yaratdı. 2020-ci ildə tarixi Zəfərlə bitən Vətən müharibəsi həm də yeni reallıqların başlanğıcı idi. Bu başlanğıc həm də yeni çağırışlar meydana çıxardı.

Vətən müharibəsində qazanılmış Qələbədən sonra Prezident İlham Əliyevin növbəti uzaqgörənliyinin nəticəsi idi ki, ölkəmiz dərhal yeni çağırışlara adaptasiya olunmuş siyasi addımlarla bu Zəfəri hər bir istiqamətdə uğurlu nəticəyə çevirdi. Ötən ilin sentyabr ayında antiterror əməliyyatları ilə ərazi bütövlüyümüzün tam bərpası yeni reallıqların və çağırışların növbəti mərhələsinə keçid idi. Əminliklə deyə bilərəm ki, 7 fevral 2024-cü il tarixi həm də qalib, güclü və bütöv Azərbaycan üçün yeni Qələbələrin başlanğıc tarixi olacaqdır.

**- 44 günlük Vətən müharibəsində əsas missiyanı məhz Ali Baş Komandan İlham Əliyevin Prezidentliyi dövründə yetişən gənclər yerinə yetirdilər. Zəfəri bizə bəxş edən çoxşaxəli siyasətin mühüm tərkib hissələrindən biri olan gənclər siyasətinin önəmi və real nəticələri barədə nə söyləyə bilərsiniz?**

- Vətən müharibəsində qazanılmış tarixi Zəfərin ən vacib məqamlarından biri də bu gün ölkəmizdə formalaşmış gəncliyin bu müqəddəs vəzifənin icrasında çox mühüm rol oynaması idi. Prezident İlham Əliyevin ətrafında bir yumruq kimi birləşən Azərbaycan gəncliyi hər kəsə sübut etdi ki, vətənpərvər, savadlı, dövlətçilik tarixinə və milli kimliyinə sadiqdir. İstər ön cəbhədə döyüş meydanında, istərsə də arxa cəbhədə informasiya müharibəsində gənclərimiz böyük qəhrəmanlıq sərgilədilər. Bu gənclər məhz Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə formalaşıblar. Məhz Prezidentin rəhbərliyi ilə həyata keçirilən uğurlu gənclər siyasətinin nəticəsidir ki, fəaliyyət istiqamətindən, peşəsindən asılı olmayaraq gənclərimizin sahib olduğu əsas dəyər onların vətənpərvərliyi və azərbaycançılıq məfkurəsidir. Bu gün Azərbaycan gəncləri fəaliyyət sahəsindən asılı olmayaraq, milli maraqların qorunması və təbliğində, həmçinin ölkənin ictimai-sosial həyatında ən fəal iştirakçılardandır.

**- Qarşıda daha böyük hədəflər, yeni vəzifələr var. Hər bir azərbaycanlı əmindir ki, bu hədəflərə yalnız cənab İlham Əliyevin rəhbərliyi və qətiyyətli siyasəti nəticəsində nail olmaq mümkündür. Bu kontekstdə Azərbaycan gəncliyinin mövqeyini ümumiləşmiş formada necə ifadə etmək olar?**

- Dünyadakı nüfuzunu daha da gücləndirən, regionun siyasi xəttini müəyyənləşdirən Azərbaycan yeni hədəflərin, yeni missiyaların daşıyıcısına çevrilib. Hamıya aydındır ki, bu gün ölkəmizdə əldə olunan nailiyyətlər, beynəlxalq arenada hər ötən gün daha da güclənən mövqeyimiz, gənclərin fəaliyyətinin, fərdi və peşəkar inkişafının dəstəklənməsi yönündə atılan addımlar yalnız qalib Lider İlham Əliyevin çevik və səmərəli idarəçilik mexanizminin nəticəsidir. Bu isə Azərbaycan gəncliyi üçün yeni vəzifələr, yeni məsuliyyət deməkdir.

Müstəqilliyimizin qorunub saxlanılması, ölkəmizin daha da güclənməsi, xarici təhdidlərə qarşı mübarizənin davam etdirilməsi, milli-mənəvi dəyərlərimizin gələcək nəsillərə ötürülməsi - bütün bunlar Azərbaycan gəncliyinin yeni reallıqlar mühitində əsas vəzifələridir. Bu vəzifələrin ən uğurlu şəkildə həyata keçirilməsi isə yalnız qalib xalqın qalib Lideri ilə mümkündür. Azərbaycan gəncləri öz vahid və dönməz mövqelerini bir daha 7 fevral tarixində ortaya qoyacaq, Prezident İlham Əliyevin ətrafında bir yumruq kimi birləşərək yeni zəfərlərin başlanğıcına səs verəcəkdir.

## Xalqımızın yeganə seçimi cənab İlham Əliyevdir



YAP Xətai rayon təşkilatının sədri, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru, professor Vüqar Rəhimzadə yap.org.az saytına müsahibə verib

**- Vüqar müəllim, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən cənab İlham Əliyevin Prezidentlik fəaliyyətinin 20 ili tamam oldu. Sizcə, ötən 20 il müasir tariximizə hansı möhtəşəm, unudulmayacaq qürur səhifələrini yazdı?**

- Son 20 ildə keçilən yola nəzər salmaq üçün öncə bu yolun uğurlu davamını şərtləndirən mühüm məqamları qeyd etməliyik. Prezident İlham Əliyevin vurğuladığı kimi, bugünkü reallıqları 2003-cü illə yox, 1993-cü illə müqayisə etməliyik. Çünki məhz o tarixdən başlayaraq Azərbaycan inkişaf yoluna qədəm qoydu. Azərbaycanın müstəqilliyinin bərpasının ilk illərində yaşadıqları tariximizin qara, faciəli səhifəsidir. O illərdə hakimiyyəti zəbt edənlərin siyasi savadsızlığı, səriştəsizliyi, idarəçilik təcrübələrinin yoxluğu, ən əsası şəxsi ambisiyalarının quluna çevrilərək dövlət maraqlarını arxa planda saxlamaları ucbatından Azərbaycan müstəqilliyini itirmək təhlükəsi ilə üzüzə qalmışdı. Əgər 1993-cü ildə Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasaydı bu gün Azərbaycan bəlkə də ancaq kiminsə əlinin altında bir oyuncaq dövlət kimi, bir yarımmüstəmləkə kimi yaşaya bilərdi. Dövlət başçısı İlham Əliyevin cəmiyyətin avanqard qüvvəsi olan Yeni Azərbaycan Partiyasının tarixi Zəfərimizin fonunda keçirilən VII qurultayında səsləndirdiyi bu çağırışı xatırlatmaq istərdim: " O dövrü bilməyən, o vaxt yaşamayan gənc nəsil bilməlidir ki, nəyin bahasına biz müstəqilliyi qoruyub saxlaya bilmişik. Kimə biz borcluyuq."

Son 20 ildə Prezident İlham Əliyev 1993-2003-cü illərdə formalaşdırılan möhkəm təmələ söykənərək həyata keçirdiyi düşünülmüş siyasəti ilə ölkəmizin hər bir sahədə uğurlu inkişafına nail oldu, dünyaya inkişafın Azərbaycan modelini təqdim etdi. Reallıq budur ki, Ümummilli Liderin 2003-cü ildə Prezidentliyə namizədliyini cənab İlham Əliyevin xeyrinə geri götürərək xalqa tarixi müraciəti bugünkü xoşbəxt həyatımız naminə atılmış həlledici addım oldu. Çünki 2003-cü il müstəqillik tariximizin həlledici dövrü idi. Məlum olduğu kimi, hər bir ölkənin inkişafında güclü lider və düşünülmüş siyasət amilləri əsasdır. Xalqımız məhz bu amili əsas götürərək 2003-cü ildə düzgün seçim etdi, Heydər Əliyev yolunun davamına səs verərək cənab İlham Əliyevi Prezident seçdi. Artıq bu gün Azərbaycanın həyatında yeni dövr başlayır. Tarixin inkişaf qanunauyğunluqlarından da məlum olduğu kimi, hər dövrün öz tələbi var. Son 20 ildə Azərbaycanda zamanın çağırışlarına adekvat addımlar atmaq daim diqqət mərkəzində saxlanılıb. Başqa sözlə, inkişafın hər mərhələsinin qarşıya qoyduğu yeni hədəflər ölkə Prezidentinin təkmil islahatları, təşəbbüsləri, qəbul etdiyi müdrik qərarlarla tamamlanıb.

Əgər bu gün Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunmasından, Qarabağın, Şərqi Zəngəzurun dirçəlməsindən bəhs ediriksə, təbii ki, bunu son 20 ilin uğurlarının ümumiləşdirilmiş ifadəsi kimi xarakterizə etməliyik. Bu məqamda cənab İlham Əliyevin YAP-ın VII qurultayında səsləndirdiyi bu çağırışı xatırlatmaq yerinə düşərdi: "Hər dövrün öz tələbləri var. Biz 1990-cı illərin tələbləri ilə XXI əsrdə yaşaya bilmərik. Hətta bu gün müharibədən sonra yeni dövr başlayır. Əvvəlki dövrlərdə əldə edilmiş bütün uğurları biz kənara qoymalıyıq. Bəli, bu, bizim üçün fundament yaratdı, baza yaratdı, imkan yaratdı ki, biz əsas məqsədimizə çataq. Ancaq əgər biz oturub bütün günü o dövr haqqında danışsaq, gələcək haqqında düşünməsək, onda nə olacaq. Biz gələcək haqqında düşünməliyik. Biz zamanı qabaqlamalıyıq."

Azərbaycan həqiqətən də zamanı qabaqlayaraq bütün sahələrdə davamlı uğurlara imza atır. Torpaqlarımızın 30 il işğal altında qalmasına gəldikdə isə, bu, heç də Azərbaycanın hansısa bir sahədə zəif olmasından irəli gəlmirdi. Azərbaycan dövləti məsələnin sülh yolu ilə həllini istəyirdi. Çünki bunun üçün hüquqi əsas mövcud idi. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamədə Qarabağın Azərbaycan ərazisi olduğu, erməni silahlı birləşmələrinin torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmasının vacibliyi öz əksini tapmışdı. Lakin beynəlxalq hüququn bu fundamental tələbinə baxmayaraq, əksər dünya güclərinin reallıqda ikili standartlara əsaslanan siyasəti Azərbaycanı ruhdan salmadı, əksinə dövlətimiz hücum diplomatiyasını daha da gücləndirərək diplomatik uğurlarının miqyasını genişləndirdi, hər sahədə sürətli inkişafını təmin etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük İkinci Qarabağ müharibəsində yazdığı Zəfər səhifəsi ölkəmizin bütün sahələrdə qazandığı uğurların ümumiləşdirilmiş ifadəsi oldu. Ötən il Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi birgünlük lokal antiterror tədbirləri nəticəsində suverenliyimizin, bundan öncə aprelin 23-də Laçın buraxılış-keçid məntəqəsinin yaradılması ilə ərazi bütövlüyümüzün tam təmin edilməsi çağdaş tariximizə növbəti zəfər səhifələrinin yazılmasına gətirib çıxardı. Əvvəldə də qeyd etdiyim kimi, güclü lider və düşünülmüş siyasət ölkəmizin bugünkü möhtəşəm qələbələrinin təminatçısıdır.

Bu gün artıq Qarabağımız və Şərqi Zəngəzurumuz dirçəlir, keçmiş məcburi köçkünlər doğma yurd-yuvalarına qayıdırlar. Bu günədək Füzuli və Laçın şəhərləri, Ağalı, Talış və Zabux kəndləri sakinlərinə qovuşub və bu ərazilərə qayıdış davam edir. Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində belə bir müjdəni də verdi ki, 2024-cü ildə keçmiş məcburi köçkünlər Şuşa, Cəbrayıl, Kəlbəcər, Xankəndi və Xocalı şəhərlərinə qayıdacaqlar. Bütövlükdə 2026-cı ilədək işğaldan azad edilmiş ərazilərimizə qayıdan sakinlərin sayı 140 min nəfərə çatacaq. Yeri gəlmişkən onu da qeyd edim ki, qarşıdakı illərin hədəfləri sırasında Qərbi Azərbaycana qayıdışımız da əsas yer tutur. Tarixi ədalət bu hədəfə çatmağımızı da diktə edir.

**- Haqqında söhbət açdığınız yeni dövrün şərtləndirdiyi mühüm hadisələrdən biri fevralın 7-də prezident seçkilərinin keçirilməsidir. Artıq seçkilərin təşviqat mərhələsindəyik. Ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyası prezidentliyə namizədi cənab İlham Əliyevin seçkiqabağı təşviqat kampaniyasını "Qalib xalqın qalib Lideri!" devizi altında uğurla həyata keçirir. Prezident seçkilərinin bu mərhələsində seçicilərə hansı çağırışları edərdiniz?**

-Birmənalı vurğulamalıyam ki, 7 fevral tarixində keçiriləcək prezident seçkiləri çağdaş tariximizə Zəfər seçkiləri kimi yazılacaq. Bu seçkilər müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ərazilərimizi əhatə edəcək. Qürurvericidir ki, işğaldan azad edilmiş ərazilərimizdə soydaşlarımızın seçkilərdə yüksək səviyyədə iştirakını təmin etmək üçün seçki məntəqələri yaradılıb. Bu seçkilər, eyni zamanda, dövlət başçısı cənab İlham Əliyevin Prezident kimi fəaliyyətinin 20 ilinin təqdimatı olacaq. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunmasının timsalında xalqımıza verdiyi bütün vədləri layiqincə yerinə yetirən cənab İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində növbədənkənar prezident seçkilərinin şərtləndirən amilləri qeyd edərək bu məqamı xüsusi qeyd etmişdir ki, prezident seçkiləri yeni dövrə xeyir-dua verəcək. Yeni dövrün yeni hədəfləri olmalıdır. Yeni dövrə köhnə hədəflərlə gedə bilmərik, çünki o hədəflər artıq əldə edilib.

Məhz yeni dövrün diktə etdiyi bu ali hədəflərə çatmaq üçün hər birimiz seçki hüququmuzdan istifadə edərək 7 fevral prezident seçkilərində fəal iştirak etməli, "Qalib xalqın qalib Lideri", Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməliyik. Çünki bu seçim gələcəyimizin təminatıdır. Daim Azərbaycanı zəfərlərə aparan, adını tariximizə qalib Lider kimi qızıl hərflərlə yazdıran cənab İlham Əliyevə xalqın sevgisi, inamı, etimadı sonsuzdur. Qalib Azərbaycan bundan sonra da qalib Prezidentinin rəhbərliyi ilə yeni zəfərlərə doğru inamla addımlayacaq. İnkişafımızın belə bir taleyüklü mərhələsində xalqımızın yeganə seçimi Yeni Azərbaycan Partiyasının Prezidentliyə namizədi cənab İlham Əliyevdir və biz qalib xalq olaraq fevralın 7-də bu seçimimizi seçki məntəqələrində öz səsimizlə rəsmiləşdirməliyik!

## Nəzakət Teymurova: Yeni zəfərlərə, inkişafa və sabitliyə səs verəcəyik



"Mən incəsənət xadimi olmaqla bərabər, həm də keçmiş məcburi köçkünəm. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə doğma Qarabağımız işğaldan azad edildi. Beləliklə, mənim ən böyük xəyallarım, ən böyük arzularım gerçəkləşdi".

Bu fikirləri tanınmış xanəndə, Xalq artisti Nəzakət Teymurova bildirib.

N.Teymurova qarabağlıların, o cümlədən özünün və ailəsinin adından Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirib: "Təbii ki, seçkilərdə bizim seçimimiz bəllidir. Cənab İlham Əliyevin rəhbərliyi ilə yeni Zəfərlərə, inkişafa və sabitliyə səs verəcəyik. Mənim incəsənətdəki bütün uğurlarımı Ulu Öndər Heydər Əliyevin və Onun layiqli davamçısı, Prezident İlham Əliyevin dəstəyi ilə qazanmışam".

Xalq artisti sənət adamlarının Prezident İlham Əliyevin onlara verdiyi böyük qiymət və dəyərdən ruhlanıb yeni əsərlər yaratdığını vurğulayıb: "Allahdan cənab İlham Əliyevə uzun ömür, cansağlığı, bu çətin və məsuliyyətli işində uğurlar arzu edirik. Əminəm ki, prezident seçkilərində xalqımız doğru seçim edəcək və fevralın 7-si hamılıqla Müzəffər Ali Baş Komandanımıza səs verəcəyik".

## Nurəddin Mehdixanlı: İlham Əliyev dünya azərbaycanlılarının qürur mənbəyidir



"Bildiyimiz kimi, 2024-cü il fevralın 7-də Azərbaycan Respublikasında prezident seçkiləri keçiriləcək. Bir Azərbaycan vətəndaşı olaraq mənim dəstəklədiyim namizəd cənab İlham Əliyevdir".

Bu fikirləri Xalq artisti, tanınmış teatr və kino aktyoru Nurəddin Mehdixanlı bildirib.

N.Mehdixanlı qeyd edib ki, Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkəmiz dünya miqyasında ciddi nüfuz və söz sahibi olub: "Bu dövrdə Azərbaycan bütün sahələrdə ciddi uğurlar, nailiyyətlər əldə edib. "Mən hər bir azərbaycanlının Prezidenti olacağam",- deyən və bunu edən dövlət başçısı İlham Əliyev dünya azərbaycanlılarının ümid yeri, qürur mənbəyidir. "Gün gələcək Azərbaycanın işğal altında olan torpaqlarını azad edəcəyik və işğal olunmuş bütün ərazilərimizdə Azərbaycanın üçrəngli bayrağı dalğalanacaq",- deyən Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımıza tarixi Qələbə qazandırdı. Həmçinin "Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz",- deyən və heç bir kənar qüvvənin Azərbaycana təsir etməsinə imkan verməyən də cənab İlham Əliyevdir".

Xalq artisti deyib ki, əgər biz bundan sonra da Azərbaycanın böyük uğurlar qazanmasını, ölkəmizin beynəlxalq aləmdə ciddi söz və nüfuz sahibi olmasını istəyiriksə, fevralın 7-də keçiriləcək prezident seçkilərində məhz cənab İlham Əliyevə səs verməliyik: "Həmçinin öz taleyimizin, öz tariximizin sahibi olmaq istəyiriksə, yenə də cənab İlham Əliyevi dəstəkləməliyik. Mən hər bir Azərbaycan vətəndaşını fevralın 7-də seçkilərə getməyə və cənab İlham Əliyevə səs verməyə çağırıram. Çünki mən əminəm ki, Azərbaycanı yeni qələbələrə, hədəflərə qovuşduracaq yeganə siyasi Lider məhz cənab İlham Əliyevdir".

# Yeni Azərbaycanla 7-ci seçkiyə! 5 gün qalır...

## "Seçimimiz qalib Lider İlham Əliyevdir"



2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Ağcabədi rayonu ərazisində məskunlaşmış laçınlı seçicilərlə görüş keçirilib.

Görüşdə YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov, şəhid atası Mehman Nəcəfov, təşviqat qrupunun üzvləri Şikar Qasımov, Sevinc Əliyeva, Mikayıl Zeynalov və Abuzər Abuzərov çıxış ediblər.

Çıxışlarda bildirilib ki, son 20 ildə cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımız misilsiz nailiyyətlərə imza atıb. Həyata keçirilmiş ardıcıl və məqsədyönlü siyasi kurs ölkəmizin sürətli və dayanıqlı inkişafını, güclü iqtisadi potensialın formalaşmasını, müasir cəmiyyət quruculuğunu, vətəndaşların rifahını, təhlükəsizlik və müasir ordu quruculuğu kimi məsələlərin effektiv həllini təmin edib, ölkəmizin beynəlxalq nüfuzu yüksəlib, dünyada strateji əhəmiyyəti artıb.

2020-ci il sentyabrın 27-də Ermənistanın davamlı hərbi təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində əldə edilmiş tarixi Zəfər və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində 30 il ərzində xalqımızın qarşısında duran ən mühüm problem - Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpası məsələsi həll edilib.

Natiqlər seçiciləri 7 fevral prezident seçkilərində fəal iştirak etməyə və ölkəmizin parlaq gələcəyinin təminatçısı olan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə çağırıblar.

"Seçimimiz qalib Lider İlham Əliyevdir",- deyə seçicilər vurğulayıblar



## "Tarixi uğurlara İlham Əliyevin müdrik siyasəti sayəsində nail olmuşuq"




2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Gəncə şəhərində seçicilərlə görüşlər keçirilib.

Əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin və ərazi bütövlüyümüzün təmin olunması uğrunda canlarından keçən Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşlərdə Milli Məclisin deputatları - YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə, Naqif Həmzəyev, Müşfiq Cəfərov, təşviqat qrupunun üzvləri Səbinə Əlizadə, Elgün Aslanov, Eldar Mehdiyev, Əlimuxtar Muxtarov və başqaları çıxış ediblər. Çıxışlarda bildirilib ki, bu gün qalibiyyət rəmzi olan üçrəngli bayrağımız Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə, Şuşada, Laçında, işğaldan azad edilmiş bütün torpaqlarımızda dalğalanır. Vaxtilə hədəf kimi qarşıya qoyulan ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunması bu gün artıq reallıqdır. Bu reallıq 2003-cü il 15 oktyabr tarixində keçirilən prezident seçkilərində xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçilən cənab İlham Əliyevin müdrik siyasəti sayəsində mümkün olub.

Natiqlər çıxışlarında tədbir iştirakçılarını 7 fevral tarixində ölkəmizin yeni hədəflərə, daha parlaq gələcəyə doğru mətin addımlarla irəliləməsinə, şanlı Zəfərimizin memarı - cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Tədbirlərdə Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.



## "İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirib"




2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Sabunçu rayonunda seçicilərlə görüş keçirilib.

Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən qəhrəman oğulların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşdə YAP Sabunçu rayon təşkilatının sədri Araz Xudadanov, Milli Məclisin deputatı Əliabbas Salahzadə, təşviqat qrupunun üzvləri Zülfüqar Cəfərov, Oruc Əhmədov, Sübhan Məmmədov və Samirə Mehtiyeva çıxış ediblər. Bildirilib ki, bu gün Azərbaycanın müasir tarixinin şanlı səhifələri yazılır. Cənab İlham Əliyevin gördüyü işlər, həyata keçirdiyi uğurlu siyasət onun bu seçkilərdə alternativsiz namizəd olduğunu bir daha təsdiq edir. Diqqətə çatdırılıb ki, cənab İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olduğunu təsdiqləyib. Qeyd olunub ki, Yeni Azərbaycan Partiyası tərəfindən prezident seçkilərində namizədliyi irəli sürülən cənab İlham Əliyevə xalqımız hər zaman olduğu kimi bu dəfə də böyük dəstək verəcək.

Çıxış edən seçicilər də fevralın 7-də seçki məntəqələrinə gedərək qalib Lider İlham Əliyevə səs verəcəklərini vurğulayıblar.



## "Qalib Liderimizin siyasətinə alternativ yoxdur"




2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Yasamal rayonunun İ.Qutqaşınlı, L.İmanov küçələri və digər ünvanlarda yaşayan seçicilərlə görüş keçirilib.

Görüşdə YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, partiyanın Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, Milli Məclisin deputatı Elnur Allahverdiyev, təşviqat qrupunun üzvləri Rəna Mirzəzadə, Elxan Hüseynov, Şikar Qasımov, Leyla Hüseynova və Lalə Bayramova çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, 20 il öncə Azərbaycan xalqı cənab İlham Əliyevi Prezident seçməklə sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirib və ölkədə bu siyasətə alternativin olmadığını göstərib.

Eyni zamanda qeyd olunub ki, Prezident İlham Əliyevin liderlik qabiliyyəti, dövlətçilik təfəkkürü, yenilməz əzmi və iradəsi ölkəmizin müasir simasını müəyyənləşdirməklə yanaşı, Cənubi Qafqaz bölgəsinin geosiyasi mənzərəsini kökündən dəyişib.

Natiqlər seçiciləri fevralın 7-də keçiriləcək prezident seçkilərində fəal iştirak etməyə və qalib xalqın qalib Lideri olan Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə səs verməyə çağırıblar.



## "Xalqın etimadını doğruldan Lideri dəstəkləyirik"



2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Göygöl rayonunda seçicilərlə görüş keçirilib.

Əvvəlcə Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Görüşdə YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev, partiyanın İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu, təşviqat qrupunun üzvləri Əmirxan Mövlayev və Yeganə İsgəndərova çıxış ediblər.

Çıxışlarda Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 20 il ərzində görülən misilsiz işlərdən, 44 günlük Vətən müharibəsində əldə edilən tarixi Zəfərin əhəmiyyətindən bəhs edilib, Müzəffər Ali Baş Komandanın Azərbaycanı inkişafdan tərəqqiyə, tərəqqidən Zəfərə çatdırdığı diqqətə çatdırılıb.

Natiqlər qeyd ediblər ki, qazanılan uğurlar cənab İlham Əliyevin prezident vəzifəsində xalqın ona etimadını layiqincə doğrultduğunun göstəricisidir.

Seçicilər də çıxışlarında fevralın 7-də hər zaman xalqın yanında olan, daim ölkəsinin uğurları üçün çalışan qalib Lider İlham Əliyevə səs verəcəklərini bildiriblər.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.



## Xalqımız qalib Lider İlham Əliyevlə qürur duyur




2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində yanvar Salyan rayonunda gənc seçicilərlə görüş keçirilib.

Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda həlak olan qəhrəman şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Prezident İlham Əliyevin 20 illik fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

Görüşdə YAP Salyan rayon təşkilatının sədri Elmar Əhmədov, təşviqat qrupunun üzvləri Allahverdi Piriyev, Yaqut Ələsgərova və Fərqanə Cəbrayılova çıxış ediblər. Natiqlər Müzəffər Ali Baş Komandan İlham Əliyevin güclü iradəsi, qətiyyəti, yenilməz ordumuzun şücaəti sayəsində Azərbaycanın əldə etdiyi şanlı Qələbədən bəhs ediblər. eləcə də, Azərbaycanda son illərdə dövlət gənclər siyasətinin uğurla həyata keçirildiyi, gənclərimizin ölkəmizin ictimai-siyasi həyatında fəal rolu diqqətə çatdırılıb.

Gənc seçicilər isə Prezident İlham Əliyevlə qürur duyduqlarını bildirərək 7 fevralda qalib Liderə səs verəcəklərini bildiriblər.



# Yeni Azərbaycanla 7-ci seçkiyə! 5 gün qalır...

## “Gələcəyə hesablanmış siyasət Azərbaycana davamlı uğurlar qazandıracaq”





2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində yanvarın 31-də YAP Xətai rayon təşkilatının qərargahında seçicilərlə növbəti görüş keçirilib.

Görüşdə YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə, partiyanın İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin, təşviqat qrupunun üzvləri Zaur Məmmədov, Mirfaiq Mirheydərli, Hicran Şərifov, Vətən müharibəsi şəhidi mayor Rüfət Əsgərovun atası Mürvət Əsgərov, Vətən Müharibəsi Qəhrəmanı Zaur Hüseynov və başqaları çıxış ediblər.

Çıxışlarda qeyd edilib ki, ərazi bütövlüyü və suverenliyini tam olaraq bərpa edən ölkəmiz bu gün siyasi, iqtisadi və hərbi baxımdan qüdrətli dövlətdir. Son 20 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müdrik, gələcəyə hesablanmış siyasət ölkəmizə davamlı uğurlar qazandırır.

Vurğulanıb ki, Prezident İlham Əliyevin ötən 20 ildə hər bir vədini reallığa çevirməsi, qətiyyətli və prinsipial mövqeyi Qərbi Azərbaycana qayıdışın da uzaqda olmadığını təsdiqləyir.

Natiqlər seçiciləri fevralın 7-də keçiriləcək prezident seçkilərində fəal olmağa və Müzəffər Ali Baş Komandan İlham Əliyevə səs verməyə dəvət ediblər.

Qeyd edək ki, Xətai rayonunda “qapı-qapı” məhəllə görüşlərinin qrafikinə uyğun olaraq seçicilərlə növbəti fərdi görüşlər Şıxlınski 59 və 57 ünvanları üzrə 4 mənzildə keçirilib.

## “Azərbaycanı parlaq gələcəyə aparan Liderə səs verəcəyik!”



2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən irəli sürülmüş cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Gənclər Birliyi bölgə gəncləri ilə görüşləri davam etdirir.




Xüsusi brendləşdirilmiş avtobus ilə təşkil edilən növbəti səyyar görüş Xaçmaz rayonunda keçirilib.

Görüşlərdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra YAP Gənclər Birliyinin üzvü Emil Aslanlı, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Azər Badamov və YAP Xaçmaz rayon təşkilatının sədr müavini Emil Tağıyev çıxış edərək prezident seçkilərinin önəmindən, cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın son 20 ildə qazandığı nailiyyətlərdən, xüsusilə də gənclər siyasətinin uğurlu nəticələrindən bəhs edib, qarşıda duran hədəfləri diqqətə çatdırıblar.

Görüşdə, həmçinin bölgə gənclərinə seçki sistemi, seçicinin hüquq və vəzifələri barədə məlumat verilib, ilk dəfə səs verəcək gənclərin məlumatlılıq səviyyəsinin artırılması ilə əlaqədar infosessiyalar təşkil edilib.

Səyyar görüşdə maarifləndirmə sessiyaları ilə yanaşı, intellektual yarışlar, fərdi və peşəkar inkişafa, eləcə də səsvermə hüququndan istifadəyə dair təlimlər və müxtəlif tematik müsabiqələr keçirilib.

Gənclər Azərbaycanın Zəfər tarixini yazan, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini təmin edən Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasətini dəstəklədiklərini, Azərbaycanı parlaq gələcəyə - işıqlı sabaha aparan Liderə səs verəcəklərini və daim onun ətrafında sıx birləşəcəklərini ifadə ediblər.

Tədbirə Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə yekun vurulub.

## “Müzəffər Liderimizə minnətdarıq!”





2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Sumqayıt şəhərində şəhid ailələri, qazilər və müharibə iştirakçıları ilə görüş keçirilib.

Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən qəhrəman oğulların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Prezident İlham Əliyevin 20 illik fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Görüşdə YAP Sumqayıt şəhər təşkilatının sədr müavini Cavid Məmiyev, Milli Məclisin deputatı Müşfiq Məmmədli, qazilər Zahir Həsənov və Ehtiram Məmmədov, şəhid Taleh Kərimovun həyat yoldaşı Nəzakət İsmayılova və təşviqat qrupunun üzvləri çıxış ediblər. Tədbirdə çıxış edənlər cənab İlham Əliyevin 20 illik prezidentlik fəaliyyəti nəticəsində Azərbaycanın qazandığı uğurlardan danışıblar. Qeyd edilib ki, bu dövrdə həm iqtisadi göstəricilər, həm də ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər 44 günlük Vətən müharibəsində böyük Zəfərin qazanılmasına imkan verib. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan xalqı bütün dünyaya sübut etdi ki, Qarabağ Azərbaycandır!

Şəhid ailələri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti, Müzəffər Ali Baş Komandana öz minnətdarlıqlarını bildiriblər. Əminliklə bildiriblər ki, 7 fevral prezident seçkilərində onların yekdil seçimi qalib ölkənin qalib Lideri İlham Əliyevdir!

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

## Gənclər Müzəffər Ali Baş Komandanın ətrafında sıx birləşiblər





2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Kəngərli rayonunda gənclərlə görüş keçirilib.

Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən qəhrəman oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşdə YAP Kəngərli rayon təşkilatının sədri Sevda Quliyeva, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Ehtimad Məmmədov, təşviqat qrupunun üzvləri Salman Quluzadə, Mirabdulla Seyidov və qazi Nicat Süleymanov çıxış ediblər.

Çıxışlarda Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün tələblərinə və reallıqlarına uyğun olaraq yeni bir mərhələyə qədəm qoyduğu qeyd olunub. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə gənclərimizin Vətən müharibəsində böyük Zəfər qazandığı xüsusi vurğulanıb. Natiqlər ölkəmizdə uğurlu gənclər siyasətinin həyata keçirildiyini, eyni zamanda, Azərbaycanın güclü idman ölkəsi kimi tanındığını deyiblər.

Gənclər çıxışlarında fevralın 7-də seçki məntəqələrinə gedərək Azərbaycan xalqının ən layiqli namizədi cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

## “Etimadımız sonsuzdur!”





2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində Culfa rayonunda seçicilərlə görüş keçirilib.

Görüşdə YAP Culfa rayon təşkilatının sədri Qadir İbrahimov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Ülviyyə Həmzəyeva, Milli Məclisin deputatı Cəbi Quliyev, Naxçıvan MR Ali Məclisinin deputatı Fərəc Fərəcov, təşviqat qrupunun üzvləri Mübariz Allahverdiyev, Tərlan Nəcəfova, Ehtiram Süleymanov, Bəylər Qafarov, Aslan Quliyev, Yadulla Heydərov və Tural Qafarov çıxış ediblər.

Çıxışlarda bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu diplomatik siyasət və ordu quruculuğu torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün təmin edilməsi və bütün ölkə ərazisi üzərində konstitusiya quruluşunun bərpası ilə nəticələnib. Bu misilsiz və cahanşümul dövlətçilik siyasətinin nəticəsidir ki, bu gün xalq qalib Liderinə etimad göstərir.

Seçicilər artıq seçimlərini etdiklərini və fevralın 7-də seçki məntəqələrinə gedərək xalqımıza Zəfər sevinci yaşadan cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## “İlham Əliyevin uğurlu siyasətini dəstəkləyirik”






2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin seçkiqabağı təşviqat kampaniyası çərçivəsində YAP Balakən rayon təşkilatının qərargahında ilk dəfə səs verəcək gənclərlə görüş keçirilib.

Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən qəhrəman oğulların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Görüşdə YAP Balakən rayon təşkilatının sədri Azad Balayev, təşviqat qrupunun üzvləri Xəlifə Mirəliyev, Fuad Mikayılov, Osman Əliyev və digərləri çıxış ediblər. Vurğulanıb ki, ölkə gəncliyinin savadlı şəkildə yetişməsi və vətəninə faydalı olması üçün bütün imkanlar səfərbər edilib.

Natiqlər gəncləri həm ictimai-siyasi həyatda, həm də seçki kampaniyasında daha fəal olmağa, 7 fevralda parlaq gələcəyə səs verməyə çağırıblar.

Çıxış edən gənclər Prezident İlham Əliyevin uğurlu və uzaqgörən siyasətini böyük ruh yüksəkliyi ilə dəstəkləyəcəklərini bildiriblər.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Sağlam gənclik, sağlam gələcək!

## Azərbaycan Gəncləri Günüdür...

Hər bir xalq öz müqəddəratını, gələcəyini, arzularını, inamını, ümidlərini daha çox gənclərə bağlayır. Bir sözlə, gənclər hər bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır. Ölkəmizdə sağlam, vətənpərvər, intellektli gənclik formalaşıb. Gənclərin hərtərəfli inkişaf etməsi, layiqli vətəndaş kimi yetişməsi, xalqına, Vətəninə sevgi hisslərinin aşılanması bütövlükdə cəmiyyəti düşündürməlidir. Bunun üçün çox ciddi və lazımlı işlərin görülməsi vacibdir. Xüsusilə də dünyanın indiki mürəkkəb, ziddiyyətli zamanında bunlar olduqca mühümdür.

Gənclər hər bir millətin yaşaması, inkişafı üçün bir növ təməl daşıdır. Bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin olması vacib şərtdir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Bu gün Azərbaycanda sağlam, vətənpərvər, intellektli gənclik formalaşıb.

Bu gün ölkəmizdə Gənclər Günü kimi qeyd olunur. Belə ki, Heydər Əliyevin 1997-ci il fevralın 2-də imzaladığı fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan olunub. Ümummilli Lider gənclər sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsi məqsədilə bütün dünyaya nümunə olacaq addımlar atıb. Ulu Öndər bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin edib. Gənclərin sosial, iqtisadi və sair problemlərinin həllinə yönələn, onların öz qabiliyyətlərinin inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, Dövlət proqramları bu qəbildəndir. Bu sənədlər gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə son dərəcə müsbət təsir göstərib.

Heydər Əliyevin “Hər bir xalqın, millətin, ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir” fikri Azərbaycanda həyata keçirilən gənclər siyasətinin fəlsəfi və ideoloji əsasıdır. Gənclər siyasəti sahəsində Ulu Öndərin siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyevin də illər ərzində əsas fəaliyyət istiqamətlərindən biri gənclər olub. Bu baxımdan ölkə başçısı gənclərə xitab edərək deyib: “Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram”.

> **Hər bir xalqın, millətin, ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir!**
>
> **Heydər Əliyev**

Həm Ümummilli Liderin, həm də Prezident İlham Əliyevin gənclər siyasətinin mərkəzində bir əsas xətt dayanır. Bu da Azərbaycan gənclərinin Vətənə sədaqət ruhunda tərbiyə edilməsidir. Azərbaycan gəncləri üçün ən həlledici sınaqlardan biri də 44 günlük Vətən müharibəsi oldu. Ordumuzun sıralarında Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz adlarını xalqımızın tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti ilə qazanılan bu Şanlı Zəfər sayəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, Azərbaycan xalqı 30 illik həsrətdən sonra tarixi torpaqlarına qovuşdu. Qürurverici haldır ki, gənclərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərib. Onlar ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak ediblər.

> **Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram!**
>
> **İlham Əliyev**

Şaxtaya, soyuğa, qara baxmayaraq, Laçın-Xankəndi yolunda etiraz aksiyasına qatılan iştirakçıların böyük əksəriyyətini gənclər təşkil edirdi. Bütün Azərbaycanın ürəyi Laçın yolunda döyünürdü. Onlar böyük əhval-ruhiyyə ilə öz haqlı tələblərini dünyaya bəyan edirdilər. Könüllü gənclər və ekoloqlarımız etiraz aksiyasında Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, “Qızılbulaq” və “Dəmirli” yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edirdilər. Aksiyaya qoşulan könüllü gənclərimizin sayı gün keçdikcə daha da artırdı. Xalqımız gecə-gündüz şaxtalı-qarlı havada orada öz haqlarını tələb edən gənclərlə fəxr edirdi.

Azərbaycanda gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında iştirakının təmin olunması üçün həyata keçirilən bütün zəruri tədbirlər Azərbaycan gəncliyini daha işıqlı sabaha aparacaq. Bu yolda dövlətimiz gənclərə böyük dəstək verir. Bu gün gənclərimiz öz sahəsində, fəaliyyətində inamla çalışırlar. İndi gənclərimiz, idmançılarımız beynəlxalq tədbirlərdə və yarışlarda iştirak edərkən tamamilə başqa bir həvəslə çıxış edirlər. Onlar bizim müzəffər xalq olmağımızın həqiqətini bir daha təsdiqləyirlər.

*Yeganə BAYRAMOVA*

# Tolerantlıq nümunəsi!

## Azərbaycan dünyaya örnəkdir...

Azərbaycan tarix boyu bir çox ölkələrdən dini və milli tolerantlıq baxımından seçilib. Ölkəmiz hər zaman tolerantlıq modelinin dini və mədəni müxtəlifliyin harmoniyası kimi qəbul edilib. Etiraf edək ki, bu harmoniya ilə yaşamaq hər xalqa məxsus olmur. Ona görə də bu harmoniya Azərbaycan xalqının yüksək mədəniyyətinin göstəricisidir.

Ötən günlərdə Bakıda “Holokost soyqırımı müasirlərin gözü ilə” mövzusunda dəyirmi masa keçirilib. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) təşkilatçılığı ilə keçirilən tədbirdə İsrailin Azərbaycandakı səfiri Corc Dik, Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri, Azərbaycanda fəaliyyət göstərən milli və dini icmaların rəhbərləri iştirak ediblər.

**İnsanlıq və gələcək naminə birgəyaşayış mütləqdir**

Tədbirin moderatoru, BBMM-nin icraçı direktoru Rəvan Həsənov dəyirmi masanı giriş sözü ilə açaraq Holokostun insanlığa, bəşəriyyətə qarşı törədilən dəhşətli cinayətlərdən biri olduğunu qeyd edib. Azərbaycan xalqının da soyqırımından əziyyət çəkdiyini xatırladan icraçı direktor vurğulayıb ki, biz nə Holokostu, nə də Xocalını unutmayacağıq.

İslamofobiyanın, antisemitizmin bəzi Avropa ölkələrində geniş yayılmasının təəssüf doğurduğunu dilə gətirən R.Həsənov din və azadlıq amillərinin siyasiləşdirilməsinin yolverilməz olduğunu vurğulayıb. O, Azərbaycanda güclü yəhudi irsinin mövcud olduğunu, ölkəmizdə yəhudilərin sərbəst və müstəqil şəkildə yaşadıqlarını deyib. Bildirib ki, ölkəmizdə yaşayan yəhudilər Azərbaycanın azadlığı uğrunda mübarizədə canlarından keçiblər.

R.Həsənov diqqətə çatdırıb ki, tarixin qaranlıq məqamlarında yaşanmış hadisələr axıra qədər davam etməməlidir. İnsanlıq və gələcək naminə birgəyaşayış, dinc yanaşma mütləqdir.

**Azərbaycan tolerantlığa böyük önəm verir**

İsrailin ölkəmizdəki səfiri Corc Dik isə vurğulayıb ki, Azərbaycan multikulturalizm və tolerantlıq siyasəti ilə bütün dünyaya nümunə göstərir. Ölkəmizin hər zaman dinc yaşayışın tərəfdarı olduğunu bildirən diplomat Holokost qurbanlarının xatirəsinin anılmasına görə Azərbaycan dövlətinə təşəkkürünü bildirib. O, vurğulayıb ki, bu tədbirin təşkili Azərbaycanda tolerantlığa necə böyük önəmin verilməsinin göstəricisidir.

C.Dik azərbaycanlıların İkinci Dünya müharibəsində qəhrəmanlıqla vuruşduqlarını, alman faşizminə qarşı mübarizə apardıqlarını qeyd edib: “Çox təəssüf ki, yəhudilərə hələ də nifrət hissi bəsləyirlər. Bunu Fələstinin HƏMAS hərəkatının xalqımıza qarşı törətdikləri hadisələr də təsdiqləyir. Bu hərəkatın üzvləri insanları qətlə yetirir, uşaqlara, qadınlara işgəncələr verirlər. Bu qanlı cinayətin qarşısının alınması istiqamətində İsrail dövləti lazımi addımları atır. Eyni zamanda, dövlətimiz



islamofobiya ilə mübarizəni də dəstəkləyir”.

**Etnik təmizləmələrə o vaxt son qoyulacaq ki...**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov qeyd edib ki, bəşəriyyət olaraq Holokostdan dərs almamışıq. Əgər bəşəriyyət Holokostdan nəticə çıxarsaydı, Yuqoslaviyada Srebrenitsa qətliamı, Azərbaycanda Xocalı soyqırımı törədilməzdi. Onun sözlərinə görə, beynəlxalq hüquq antisemitizmin, islamofobiyanın qarşısını almaqda acizdir.

G.İsmayılov etnik təmizləmələri, soyqırımı kimi hadisələrin baş verməsini ədalətsizliyin, ikili standartların nəticəsi kimi qiymətləndirib: “Azərbaycan xalqı da ikili standartlardan əziyyət çəkir. XXI əsrdə yaşamağımıza baxmayaraq, Xocalı faciəsinin törədilməsi ancaq təəssüf hissi doğurur. Qətliamlara, etnik təmizləmələrə o vaxt son qoyulacaq ki, ədalət bərpa ediləcək, haqq-ədalət insanlara münasibətdə başlıca amil olacaq”.

Azərbaycanın da soyqırımından əziyyət çəkən xalqlardan biri olduğunu xatırladan Bakı Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev haqq-ədalətin sonda zəfər çaldığını, ölkəmizin 30 ilə yaxın davam edən işğala son qoyduğunu deyib.

Kinin, ədavətin çoxaldığını, ikili standartların hələ də davam etdiyini bildirən icma rəhbəri qeyd edib: “Maraqlıdır, Avropada indi nələr baş verir? Azərbaycan suverenliyini tam bərpa edəndən sonra ölkəyə qarşı təzyiqlər güclənib. Çox güman ki, onlar Azərbaycanın müstəqil siyasətini qəbul etmək istəmirlər”.

Roma Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi Vladimir Fekete Holokostun bəşəriyyət üçün çox dəhşətli hadisələrdən biri olduğunu və tarix boyu ürəkağrısı ilə xatırlanacağını qeyd edib. Bildirib ki, qətliama, soyqırımına bəraət yoxdur. Onun sözlərinə görə, Holokost zamanı 6 milyondan çox yəhudi qırğına məruz qalıb ki, onlardan 1,5 milyonu uşaqlardır.

*Y.SAHİB*


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**


# “CityNet” indi “Nar” mağazalarında




Abunəçilərinin hər zaman rahatlığını təmin edən “Nar” indi öz mağazalarında “CityNet” internet provayderinin xidmətlərini də təqdim edir. Bu əməkdaşlıq çərçivəsində, “Nar”ın Elmlər Akademiyası (H.Cavid pr., 48) və Memar Əcəmi (Hüseynbala Əliyev 4) mağazalarına yaxınlaşaraq “CityNet” xidmətləri haqqında məlumat almaq və abunə olmaq mümkündür.

Müxtəlif xidmətləri vahid mərkəzdən təqdim etməklə əlçatanlıq strategiyasına əsaslanan “Nar” mağazalarında yüksək müştəri xidməti ilə sərfəli təkliflərdən yararlanmaq imkanı verir.

Qeyd edək ki, “CityNet” 17.99 AZN-dən başlayan qiymətlərlə yüksəksürətli sabit internet, ev telefonu xətti və rəqəmsal TV xidmətləri təqdim edən internet provayderidir. “CityNet” xidmətləri haqqında daha ətraflı buradan tanış ola bilərsiniz.

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# “Qızlara ağ yaraşır” beynəlxalq jurnalistlərdən mükafat qazandı!

## Azercell və Azərbaycan Cüdo Federasiyasının ortaq layihəsi Azərbaycan reklam və marketinq tarixində ilk dəfə olaraq “Epica Awards” mükafatına layiq görüldü

“Qızlara ağ yaraşır” layihəsi “Epica Awards” festivalında 2 nominasiya üzrə medallara layiq görülüb. Festivalın münsiflər heyəti yalnız marketinq və kommunikasiya sahəsi üzrə ixtisaslaşmış 115 jurnalistdən ibarətdir. Sosial layihə “Ünsiyyət və İctimai Xidmətlər” kateqoriyasında gümüş, “İdmanla Bağlı Reklam Kampaniyası” kateqoriyası üzrə isə bürünc mükafat əldə edib. Qeyd edək ki, 115-dən çox jurnalistin dəyərləndirmə apardığı bu festivalda ilk dəfədir ki, Azərbaycanı təmsil edən layihə mükafata layiq görülüb.

“Qızlara ağ yaraşır” layihəsi bundan öncə “Ad Black Sea” beynəlxalq festivalında və Mərkəzi Asiyanın ən böyük kommunikasiya festivalı - “Red Jolbors”da Qran-pri və müxtəlif mükafatlar əldə etmişdi.

Qeyd edək ki, ölkənin lider mobil operatoru Azercell və Azərbaycan Cüdo Federasiyasının birlikdə həyata keçirdiyi sosial kampaniyanın əsas məqsədi qızları cüdoyla məşğul olmağa həvəsləndirməklə onları sağlam və fəal həyat tərzi sürməyə təşviq etmək, həmçinin erkən nikahlara qarşı mübarizə aparmaq idi.

Kampaniya çərçivəsində Azərbaycan Cüdo Federasiyasının məktəbləri və bölmələri olan bölgələrdə qeydiyyatdan keçən 7-14 yaşlı ilk 1000 qıza cüdoqi və 1 ay ödənişsiz məşq hədiyyə olunub.




“Qızlara ağ yaraşır” layihəsi haqqında ətraflı məlumat əldə etmək üçün: **https://qizlaraagyarasir.az/#**


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4847**
**Sifariş: 254**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova